2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 dekabr 2019-cu il tarixli 01 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 23 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilən seçkilərdə 75 saylı Lənkəran – Masallı seçki dairəsindən Türkoba bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Cəfərov Nofəl Əli oğlu və Şükürov Ələkbər Allahverdi oğlunun, qeydə alınmış namizəd Hüseynov Rövşən Mütəllim oğlu və müşahidəçi İbrahimov Mais Əlipaşa oğlunun, qeydə alınmış namizədlər Ağayev Vəkil Mürşüd oğlu, Nuriyev Elşad Əliağa oğlu, İbrahimov Mehman Qurban oğlu və Əsədullayev Cahil Səfər oğlunun seçki günü həmin seçki dairəsinin 29 və 30 saylı seçki məntəqələrində baş verən qanun pozuntularına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 dekabr 2019-cu il tarixli 01 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin Məcəllənin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə görə seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Həmin Məcəllənin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 75 saylı Lənkəran – Masallı seçki dairəsindən Türkoba bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Cəfərov Nofəl Əli oğlu və Şükürov Ələkbər Allahverdi oğlunun, qeydə alınmış namizəd Hüseynov Rövşən Mütəllim oğlu və müşahidəçi İbrahimov Mais Əlipaşa oğlunun, qeydə alınmış namizədlər Ağayev Vəkil Mürşüd oğlu, Nuriyev Elşad Əliağa oğlu, İbrahimov Mehman Qurban oğlu və Əsədullayev Cahil Səfər oğlunun seçki günü həmin seçki dairəsinin 29 və 30 saylı seçki məntəqələrində baş verən qanun pozuntularına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 dekabr 2019-cu il tarixli 01 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 75 saylı Lənkəran – Masallı saylı seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov